# El köçdü, yurdum qaldı



**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı
Gəncə şəhəri**

**II YAZI**

***Tarix boyu həmişə müharibə və istilalar, işğallar dövründə əhalinin bir yerdən digər yerlərə köçürülməsi və yaxud da öz doğma torpaqlarından qovularaq çıxarılması kimi xoşagəlməz hadisələr baş verib.***

***Hələ Ərəb istilaları dövründə Azərbaycana ərəblər, Fars işğalları dövründə farsdilli tayfalar, Rusiya imperiyası meydana gəldikdən sonra isə rus işğalları zamanı ruslar və ermənilər köçürülmüş, həmçinin azərbaycanlılar da kütləvi surətdə Ərəbistana, Şərqi İrana, Orta Asiya torpaqlarına və başqa bölgələrə köçürülmüşlər.***

***Ərəb xilafəti dövründə baş vermiş üsyanlar yatırıldıqdan sonra əhalinin müəyyən qismi zorla köçürülmüş, bir hissəsi isə vahiməyə düşərək öz yurdlarını tərk etməyə məcbur olmuşlar.***

***Məsələn, Zəngibasarda qəssab Hacı Tağının başçılığı ilə baş verən üsyan zamanı xeyli adam amansız təzyiqə məruz qalmış və ev-eşiyindən qaçmalı olmuşdur.***

IX-X əsrlərdə Bütöv Azərbaycanda tez-tez məhəlli müharibələr, çəkişmələr, münaqişələr baş verirdi. IX əsrin ortalarında Şirvanda Məzyədilər (861-1027) sülaləsinin hakimiyyəti dövründə Şirvanşahlar dövləti öz ərazisini Dərbənddən Kür çayına qədər ərazi hesabına böyütdü, sonra Şəki torpaqlarını da özünə tabe etdi. X əsrdə Salarilərin hökmranlığı dövründə Azərbaycanın Cənub-Qərbində ərazi uğrunda gedən geniş işğalçılıq mübarizələri vaxtında həm məcburi, həm də təbii köçmələr, köçürülmələr baş verirdi. 1038-ci ildə səlcuqların yürüşü zamanı da xeyli yerdəyişmələr baş vermişdi. 1062-1065-ci illərdə gürcü çarı IV Baqratın təhriki ilə Qərbi Azərbaycana alanlar yürüş etdilər, İrəvan, Sürməli, Saatlı, Zəngibasar, Gərnibasar, Vedibasar və digər qəza və paşalıqlarda yeni talanlar, kütləvi qarətlər baş verdi, əhalinin əksər hissəsi öz dədə-baba yurdundan didərgin salındı.

XI əsrdə Səlcuqların hakimiyyətinin güclənməsi böyük siyasi, coğrafi dəyişmələrə səbəb oldu. Gürcü çarı IV David (1089-1125) səlcuqlara qarşı mübarizə aparmaq məqsədilə Şimali Qafqazın köçəri tayfaları ilə ittifaq bağladı. 45 min seçmə qıpçaq döyüşçüsünü ailələri ilə birlikdə Kaptli ərazisinə köçürdü. Tiflis və Dağ Borçalını səlcuqlardan geri ala bildi. Gümrü və Ağbabanı oda qaladı. Qızılqoç aşırımında minlərlə insan qar uçqunları altında qalaraq tələf oldu. Bir qədər sonra Şəki, Qəbələ, Gəncəni də tutdu. Gəncə əhalisindən xeyli adamı əsir götürdü, şəhəri qarət elədi. 1138-ci ildə gürcü çarı I Demetre (1125-1156) Gəncəyə basqın edəndə də Kür sahili kəndlərin xeyli sakini qılıncdan keçirilmiş, Xalxalın (Qazağın) on altı kəndi əhalisi ilə bərabər yer üzündən silinmiş, Şəmkir bölgəsində daş-daş üstündə qalmamışdı. Dəllər kəndinin yaxınlığındakı "Qanlı dərə" buna şəhadət edə bilər. Gürcü çarları dönə-dönə Azərbaycana qarşı səlib yürüşündə bulunmuşlar. XIX əsrin tarixçisi Svetlana Lavrova Sankt-Peterburqda nəşr olunan "Russkiy İnvalid" dərgisinin 149-cu sayında (1837-ci il) yazırdı ki: "Gürcü çarı III Georgi 1165-ci ildə Gəncəni işğal edib Naxçıvan və İrəvana tərəf hərəkət etmişdi. Məhəmməd Cahan Pəhləvanın oğlu Atabəy Əbubəkr (1191-1210) Gürcü çariçası Tamaraya (1184-1213), Şirvanşah Axsitana və düşmənlər tərəfə keçmiş öz qardaşı Əmirmirana qarşı mübarizə aparmalı olmuşdu. 1203-cü ildə yenə də Şəmkir yaxınlığındakı vuruşmada müttəfiqlər Əbubəkri ciddi məğlubiyyətə uğradaraq, onu qaçmağa məcbur etdilər.



***Beləliklə, Gəncə Əmirmiranın əlinə keçdi..."***

***Gürcü mənbələri də o dövr üçün əhəmiyyət kəsb edən qanlı çarpışma və talanlar barədə müfəssəl məlumatlar verir. Həmin vaxtlarda təqib və hücumlara tab gətirə bilməyən azərbaycanlı – dinc əhalinin xeyli hissəsi qaçmağa və başqa yerlərə köçməyə məcbur olmuşdur. O çağların gərgin siyasət burulğanında əhalinin haralardan-haralara köçürülməsi barədə kifayət qədər məlumatlar var. Yeri gəlmişkən qeyd edək ki, 1221-ci ildə monqolların hücumu nəticəsində Mil düzü kənd və şəhərləri darmadağın edildi. Nə qədər ailənin, zəhmətkeş insanların öz doğma ocağından dərbədər düşməsinə səbəb olub.***

1386-cı ildə Toxtamışın Şirvana, Naxçıvan, İrəvan və Təbrizə hücumları nəticəsində nə qədər kəndlər, qəsəbələr dağıdılıb, insanlar didərgin düşüb. İrəvan qalası və ətraf ərazilərdə yaşayan oğuz türkləri soyqırıma məruz qalıb. Təkcə Təbriz şəhərindən iki yüz min adam girov götürülüb. Teymurləngin istilası dövründə də Qərbi Azərbaycanın dinc sakinləri qılıncdan keçirilib.

***XVI-XVII yüzilliklərdə Ön Qafqaz torpaqlarının yenidən bölüşdürülməsi uğrunda siyasi mübarizə həddini aşaraq güclənmişdi.***

***Rusiya-Osmanlı-Azərbaycan dövlətləri arasında gedən qanlı çəkişmələr əsas etibarı ilə Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində gedirdi. Böyük kütləvi köçürmələr də məhz elə bu dövrə təsadüf edir. Məsələn, I Şah Abbasın zəmanəsində (1587-1629) Naxçıvan, Culfa, Qarabağ, İrəvan, Sərdarabad, Göyçə gölü hövzəsi, Vedibasar, Zəngibasar və digər yaşayış məntəqələrindən İranın dərinliklərinə çoxlu sayda əhali 'köçürüldü'.***

I Şah Abbasın Arazın şimal hissəsinə yürüşləri dövründə yerli əhali arasında tərəddüd və fikir müxtəlifliyi hökm sürürdü. Əhalinin müəyyən qrupu Şahın gəlişini alqışlayır, əksəriyyət isə şahın yeni işğalçılıq siyasətini lənətləyirdi. Bu dövrdə Naxçıvan, Culfa və İrəvan erməniləri I Şah Abbasın güclü ordusu qarşısında yerli türk əhalinin tab gətirməyəcəyini qətiləşdirdikdən sonra siyasətdən ustalıqla öz məqsədləri üçün istifadə etməyi bacardılar. Erməni tacirləri saraydan aldıqları məlumatlara əsaslanaraq bildirirdilər ki, şah istər sülh, istərsə də hərb yolu ilə Arazın sol sahilini ələ keçirdikdən sonra yerli əhalinin çox payını İranın insan ayağı dəyməyən yerlərinə sürgün edəcək.

Tarixçi İsgəndər Münşinin məlumatına görə, Culfa və Naxçıvan döyüşsüz tutuldu, o biri sahilin erməni əhalisi və əyanlar pişvaza çıxıb, Zülfüqar xanın qoşununu mehribanlıqla qarşıladılar.

I Şah Abbas Culfanı və Naxçıvanı zəbt etdikdən sonra İrəvan qalasını ələ keçirməyi qərara aldı. 1603-cü il noyabrın 16-da qala mühasirəyə alındı və bu, uzun müddət davam etdi. Çünki on min nəfərdən bir qədər çox Osmanlı qarnizonu üç istehkam xətti üzrə müdafiə olunurdu.

Digər tərəfdən Osmanlıların odlu silahının müdafiə gücü kifayət qədər davamlı idi.

Şah İrəvan qalasının həndəvərində istehkam tikmək üçün Naxçıvan və Culfa şəhərlərində məskunlaşan erməni əhalisinin çox hissəsini səfərbərliyə aldı və onların da hərbi əməliyyatda iştirak etmələrini məsləhət gördü. Bu da yerli əhali olan Azərbaycan türklərinə baha başa gəldi. Onların çoxu qalanın mühasirəsi zamanı soyuqdan, aclıq və ağır xəstəlikdən həyatlarını itirdilər.

Şah qoşununun hərbi əməliyyatı bütün qışı davam etdi (1603-1604). Nəhayət 1604-cü il iyunun 8-də İrəvan qalası zəbt olundu.

***Şərif paşa başda olmaqla, qarnizonun qalan hissəsi təslim oldu. İrəvanın idarə edilməsi Əmirgünə xan Qacara, Naxçıvan isə Maqsud Sultan Kəngərliyə tapşırıldı. Ancaq buna baxmayaraq şahın erməni satqınlarına inamı artdı. Ona itaət göstərməyən yerli əhaliyə isə amansız divan tutmağa başladı. Sonra isə kütləvi repressiya kampaniyası başladı. İsgəndər Münşi yazırdı ki: 'Şah qoşunu bu əmri yerinə yetirərək Qars və Ərzurum arasında yerləşən Həsənqala adlı yerə gəlib çatdı, heyvanlar üçün tədarük edilmiş ot-ələf, taxıl ehtiyatı yandırılaraq məhv edildi. Şahın əmri ilə on minlərlə adam silah gücünə İsfahan, Mazandaran, Şiraz, Məşhəd və İranın içəriləri, ucqar vilayətlərə sürgün edildi. Ölkənin talan edilməsi Azərbaycan xalqı üçün böyük müsibət idi. Tarixşünaslıqda bu yerdəyişmə 'böyük sürgün" adını almışdır.***

I Abbasın əhalinin sürgün edilməsi və yaşayış məntəqələrinin dağıdılması haqqında əmri təcili həyata keçirildi. Fərman veriləndən bir neçə gün sonra şahın qərargahını yerləşdirməyə yer yox idi. Çünki Naxçıvan və onun ətrafındakı yaşayış məntəqələri xarabazara çevrilmişdi. Beləliklə, Naxçıvan, İrəvan, Culfa və digər çiçəklənmiş diyar Səfəvi şahının fərmanı ilə yandırılmış və əhalisi didərgin salınmışdı..."

Ümumiləkdə Azərbaycan torpaqlarının gah Osmanlı, gah da Səfəvi və Rus qoşunlarının hücumlarına məruz qalması, kənd və şəhərlərin tez-tez döyüş meydanlarına çevrilməsi də xalqın normal həyatını pozur, gün-güzəranını getdikcə pisləşdirirdi.

XVII əsrin əvvəllərində İran-Osmanlı müharibələri dövründə erməni əhalisinin xeyli hissəsi Azərbaycana köçürülmüşdü. 1635-ci ildə Sultan IV Muradın qoşunları İrəvan və Naxçıvanı işğal etmiş və hər iki şəhəri tamam dağıtmışdı. O vaxt Ordubad, Təbriz, Culfa əhalisinin çox hissəsi də yurdsuz-yuvasız qalmışdı.

Azərbaycan türklərinin öz doğma torpaqlarından kütləvi surətdə qovulmaqla və yaxud da sürgünə göndərməklə çıxarılması mərhələli şəkildə davam etmişdir. Nadirqulu şahın (1736-1747) zəmanəsində də bu proses davamlı olaraq icra edilmişdir. Nadirqulu şah bir növ bu xalqdan qisas almışdır. Əslində isə Azərbaycan türklərinin tarixi ərazilərini parçalamış, yerli əhalini uzaq məkanlara sürgün etmiş, ermənləri bu diyara köçürməklə onların sayını qat-qat artırmağa əlverişli şərait yaratmışdır. Məsələn, Nadirqulunun Muğanda tacqoyma mərasimində iştirak etməməsini bəhanə edərək Gəncə bəylərbəyi Ziyadoğlu ilə şəxsi ədavət aparması xalqımızın taleyində çox ağır, faciəli səhifələr yaratmışdır. Nadirqulunun bu siyasəti bəyənilmədiyinə rəğmən onun əleyhinə çıxışlar, çaxnaşmalar baş verirdi. Ona görə də şah Azərbaycanı susdurmaq, hakimiyyətini möhkəmlətmək üçün güclü tayfaları sındırmaq, onları sürgün etmək fərmanı imzalayıb. O, Gəncə və Qarabağın cavanşirlər, otuzikilər, kəbirlilər tayfasından olan əhalinin əksəriyyətini 1736-cı ildə Xorasan, Mazandaran, Mərənd və başqa yerlərə sürgün etdi.

Əlbəttə ki, əhalinin bu sürgünü nəticə etibarilə Qarabağın xeyli hissəsinin boşalmasına, zəifləməsinə, ermənilərin və digər tayfaların mövqelərinin isə güclənməsinə və möhkəmlənməsinə imkan yaratdı. Bununla kifayətlənməyən Nadirqulu şah Qarabağın Vərəndə, Craberd, Gülüstan, Dizaq və Xaçen məliklərinin Gəncə bəylərbəylisinə tabe olmamaq sərəncamını verdi. Ziyadoğluların acığına şah Gəncəyə tabe olan Qazax, Şəmşəddin, Borçalı mahallarını da Kartli-Kaxetiya çarlığına tapşırdı. Beləliklə də o, Qarabağı və bütövlükdə Borçalı zonasını Ziyadoğluların ixtiyarından aldı və Azərbaycanda böyük nüfuza malik bu bəylərbəyinin hərbi və iqtisadi qüdrətini zəiflətdi. Nadir şah onun əleyhinə Dərbənddə qiyam qaldırması ilə əlaqədar Muradəli xanı edam etdirdi və onun tərəfdarı olan əhalini zor gücünə Həmədana sürgün etdi. Rus konsulluğunun məlumatına görə şah bütün Dərbənd türklərini Xorasana və orada yaşayan əhalini isə Dərbəndə köçürmək fikrində olmuşdur. Şah Muğandakı döyüşkən köçəri tayfalarını neytrallaşdırmaq üçün onları da cənuba sürgün etdi. Ona tabe olmaqda tərəddüd edən və əleyhinə çıxan Car, Qavıx, Ağzıbir yaşayış məntəqələri, Şəki vilayətini, Şirvanın bir hissəsini yerlə yeksan elədi.

***Abbasqulu Ağa Bakıxanov qeyd edir ki, bu əyalətdəki əvvəlki əhalidən demək olar ki, əsər-əlamət qalmamışdı. Köhnə Şamaxının əhalisi demək olar ki, tamamilə köçürülmüşdü. Onların bir qismi Ağsuya (Yeni Şamaxıya) qovulmuş, qalanı isə müxtəlif yerlərə sürgün edilmişdi.***

***Dərbəndə köçüb gəlmiş qaçqınlardan ehtiyat etdiklərinə görə şahın adamları onları oradan da qovub çıxardılar. Bu cür sıxışdırmalar, qeyri-insani rəftar əhalidə Nadir şaha qəzəbi daha da artırırdı.***

***Nadir şahın öldürülməsindən (1747) sonra Azərbaycanın xanlıqlara parçalandığı dövrdə də məhəlli döyüşlər olur və o qədər də böyük olmayan köçürmələr baş verir, bəzi kəndlərin əhalisi qəfil hücumlardan və aclıqdan qorumaq üçün doğma yurdlarından başqa yerlərə köçür, bəzən də qaçmaqla özlərini xilas edirdilər...***

**(ardı var)**